2024-ci il

2024, 31 dekabr	Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciət etmişdir.
2024, 29 dekabr	Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak etmiş, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı vermişdir. Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Televiziyasına müsahibə vermişdir.
2024, 28 dekabr	Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olmuşdur.
2024, 25 dekabr	"Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması ilə bağlı müşavirə keçirmişdir.
2024, 24 dekabr	2024-cü ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxış etmişdir.
2024, 18 dekabr	Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibə vermişdir.
2024, 17 dekabr	Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olmuşdur.
2024, 16 dekabr	Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul etmişdir.
2024, 12 dekabr	Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmişdir.
2024, 11 dekabr	Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və Komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul etmişdir.
2024, 10 dekabr	Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul etmişdir.
2024, 4 dekabr	Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul etmişdir.
2024, 3 dekabr	Mavritaniya İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sid Əhməd əl-Bekaye Hamadinin etimadnaməsini qəbul etmişdir.

	El-Salvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Enrike Haime Kalderonun etimadnaməsini qəbul etmişdir. Yəmən Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Saleh Əhməd Turiqin etimadnaməsini qəbul etmişdir.
2024, 2 dekabr	Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki icmalar naziri Karlos Pinto Pereiranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2024, 28 noyabr	Bakıda abadlıq, əsaslı yenidənqurma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışında iştirak edir.
2024, 22 noyabr	İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri Miri Reqevi qəbul etmişdir.
2024, 18 noyabr	Rusiya Federasiyasının maliyyə naziri Anton Siluanov və Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutski ilə görüşü olmuşdur. Palau Respublikasının Prezidenti Surangel Uipps ilə görüşü olmuşdur. Millətlər Birliyi təşkilatının (Commonwealth of Nations) Baş katibi Patrisia Canet Skotland ilə görüşü olmuşdur.
2024, 17 noyabr	ABŞ Nümayəndələr Palatasının üzvü Avqust Pflügerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olmuşdur. Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietzko, Beynəlxalq Avarçəkmə Federasiyasının prezidenti Jan Kristof Rollan və Beynəlxalq Draqon Qayıqları Federasiyasının prezidenti Klaudio Şermi ilə görüşü olmuşdur. Malayziyanın paytaxtı Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə görüşü olmuşdur. ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşü olmuşdur.
2024, 14 noyabr	Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin Baş müşaviri Məhəmməd Yunus ilə görüşü olmuşdur. BMT Baş Assambleyasının 79-cu sessiyasının Prezidenti Filemon Yanq ilə görüşü olmuşdur. Monteneqronun Prezidenti Yakov Milatoviç ilə görüşü olmuşdur. Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkova ilə görüşü olmuşdur. Nepalın Prezidenti Ramçandra Paudel ilə görüşü olmuşdur.

	Braziliya Federativ Respublikasının vitse-prezidenti Jeraldu Alkmin ilə görüşü olmuşdur. Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Taye Atske Sellasiye ilə görüşü olmuşdur. Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşü olmuşdur. Yəmən Respublikasının vitse-prezidenti Abdullah al-Alimi Bawazeer ilə görüşü olmuşdur. Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzu ilə görüşü olmuşdur. İslam İnkişaf Bankının prezidenti Məhəmməd Əl-Casir ilə görüşü olmuşdur.
2024, 13 noyabr	Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) prezidenti Odil Reno-Basso ilə görüşü olmuşdur. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olmuşdur. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü zamanı Xankəndidə tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasimində iştirak etmişdir. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşü olmuşdur. Toqo Respublikasının Prezidenti For Essozimna Qna ilə görüşü olmuşdur. Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə görüşü olmuşdur. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə görüşü olmuşdur. Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşü olmuşdur. İran İslam Respublikasının vitse-prezidenti, İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədri xanım Şina Ənsari ilə görüşü olmuşdur. Qabon Respublikasının vitse-prezidenti Cozef Ovondault Berre ilə görüşü olmuşdur. Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin ilə görüşü olmuşdur. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxış etmişdir. Çin Xalq Respublikası Baş nazirinin müavini Din Süesən ilə görüşü olmuşdur. Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olmuşdur. Beynəlxalq Valyuta Fondunun (BVF) sərəncamçı direktoru Kristalina Georgiyeva ilə görüşü olmuşdur.

2024, 12 noyabr	BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində çıxış etmişdir. FIFA-nın prezidenti Canni İnfantino ilə görüşü olmuşdur. İspaniya Krallığı Hökumətinin Sədri Pedro Sançez ilə görüşü olmuşdur. İordaniya Haşimilər Krallığının Vəliəhdi Şahzadə II Əl-Hüseyn bin Abdullah ilə görüşü olmuşdur. Küveyt Dövlətinin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşü olmuşdur. Qana Respublikasının Prezidenti Nana Addo Dankua Akufo-Addo ilə görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur. Müqəddəs Taxt-Tacın Dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olmuşdur. Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşü olmuşdur. Çex Respublikasının Baş naziri Petr Fiala ilə görüşü olmuşdur. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer ilə görüşü olmuşdur. Albaniya Respublikasının Baş naziri Edi Rama ilə görüşü olmuşdur.
2024, 11 noyabr	Monqolustan Prezidenti Uxnaaqiyn Xurelsux ilə görüşü olmuşdur. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Denis Beçiroviç və üzvü Jelka Tsviyanoviç ilə görüşü olmuşdur. Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü olmuşdur. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olmuşdur. Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşü olmuşdur. Belçika Krallığının Baş naziri Aleksandr De Kro ilə görüşü olmuşdur. Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü olmuşdur. Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə görüşü olmuşdur. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə görüşü olmuşdur. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olmuşdur.

	Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş ilə görüşü olmuşdur.
2024, 10 noyabr	Surinam Respublikasının Prezidenti Çandrikapersad Santoxi ilə görüşü olmuşdur. San-Tome və Prinsipi Demokratik Respublikasının Baş naziri Patris Emeri Trovoada ilə görüşü olmuşdur. Zimbabve Respublikasının Prezidenti Emmerson Dambudzo Mnanqaqva ilə görüşü olmuşdur. Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə görüşü olmuşdur.
2024, 8 noyabr	Zəfər parkının açılışında xalqa müraciət etmişdir. Dövlət Bayrağı Meydanında Azərbaycanın üçrəngli Bayrağını ucaltmışdır.
2024, 7 noyabr	Böyükşor–Pirşağı yeni avtomobil yolunun açılışında iştirak etmişdir. Bakıda Mərkəzi Parkın üçüncü hissəsinin açılışında iştirak etmişdir.
2024, 5-6 noyabr	**Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfər etmişdir.** ***5 noyabr 2024*** **Bişkek** Qırğız yazıçısı Çingiz Aytmatovun ev-muzeyində "Çingiz Aytmatov" ordeni ilə təltif olunmuşdur. Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak etmişdir. ***6 noyabr 2024*** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur. Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. Macarıstanın Baş naziri Viktor Orbanın Türk dünyasının Ali Ordeni ilə təltif olunması mərasimində iştirak etmişdir.
2024, 4 noyabr	Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olmuşdur.
2024, 1 noyabr	Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısında aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.
2024, 31 oktyabr	Bakıda Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olmuşdur. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olmuşdur.

2024, 30 oktyabr	Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olmuşdur.
2024, 28 oktyabr	Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzanı qəbul etmişdir.
2024, 23-24 oktyabr	**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfər etmişdir.** ***23 oktyabr 2024*** Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olmuşdur. Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref ilə görüşü olmuşdur. Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olmuşdur. Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit ilə görüşü olmuşdur. BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşü olmuşdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından XVI BRICS Sammitinin keçirilməsi münasibətilə verilən rəsmi ziyafətdə iştirak etmişdir. ***24 oktyabr 2024*** XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında iştirak etmişdir. Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.
2024, 22 oktyabr	"MAN Truck&Bus" şirkətinin baş direktoru Aleksandr Vlaskampı qəbul etmişdir.
2024, 21 oktyabr	ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenteri qəbul etmişdir.
2024, 17 oktyabr	Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olmuşdur.
2024, 14 oktyabr	Belçika Krallığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir. Qətər Dövlətinin Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir.

	Benin Respublikasının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir. Estoniyanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir. Danimarkanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir.
2024, 9 oktyabr	Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının beynəlxalq enerji və iqlim üzrə naziri Keri Makkartini qəbul etmişdir. ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşaviri Con Podestanı qəbul etmişdir. BMT Baş katibinin birinci müavini Amina Mohammedi qəbul etmişdir.
2024, 7-8 oktyabr	**MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasına səfər etmişdir.** ***7 oktyabr 2024*** **Moskva** MDB dövlət və hökumət başçılarının qeyri-rəsmi naharında iştirak etmişdir. ***8 oktyabr 2024*** Rusiya Prezidenti Vladimir Putinlə görüşmüşdür. Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. MDB dövlət və hökumət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir. “Rossiya-1” televiziya kanalına müsahibə vermişdir.
2024, 3-4 oktyabr	Cəbrayıl və Zəngilan rayonlarına səfər etmişdir. ***3 oktyabr 2024*** **Cəbrayıl** Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olmuşdur. Mehdi Mehdizadə adına tam orta məktəbin binasının açılışında iştirak etmişdir. Cəbrayıl şəhərində alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoymuşdur. Damazlıq yumurta istehsalı fabrikinin təməlini qoymuşdur.

	"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak etmişdir. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir. **Zəngilan şəhəri** Beşinci yaşayış kompleksinin təməlini qoymuşdur. Altıncı yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir. 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olmuşdur. Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur. "AzərEnerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir. ***4 oktyabr 2024*** **Cəbrayıl** İnşa olunan yaşayış kompleksinin açılışında iştirak etmişdir.
2024, 30 sentyabr	Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutskini qəbul etmişdir. Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında çıxış etmişdir.
2024, 27 sentyabr	Anım Günündə Bakıda inşası davam etdirilən Zəfər parkında olmuşdur.
2024, 26 sentyabr	İqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxış etmişdir.
2024, 25 sentyabr	Çoxməqsədli JF-17C təyyarələrin təqdim olunma mərasimində iştirak etmişdir.
2024, 24 sentyabr	"ADEX-2024" və "Securex Caspian" sərgiləri ilə tanış olmuşdur.
2024, 23 sentyabr	Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitq söyləmişdir. Özbəkistan Respublikasının Baş nazirinin müavini Cəmşid Xocayevi qəbul etmişdir.
2024, 19-20 sentyabr	Ağdam, Xankəndi rayonlarına və Şuşa şəhərinə səfər etmişdir. ***19 sentyabr 2024*** **Ağdam** Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak etmişdir. Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olmuşdur. Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılışlarında iştirak etmişdir. Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak etmişdir.

	"Aghdam City Hotel"in açılışında iştirak etmişdir. "İmarət" stadionunun təməlini qoymuşdur. Xıdırlı kəndində görülən bərpa işləri ilə tanış olmuşdur. Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanış olmuşdur. **Xankəndi** Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur. Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak etmişdir. Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olmuşdur. 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak etmişdir. Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olmuşdur. **Şuşa** Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak etmişdir. Bayraq Meydanının açılışında olmuşdur. ***20 sentyabr 2024*** Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak etmiş və Universitetinin müəllim və tələbə heyəti ilə görüşdə çıxış etmişdir.
2024, 17 sentyabr	Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Zəkiyyə İğılın etimadnaməsini qəbul etmişdir.
2024, 15 sentyabr	Formula 1-in prezidenti və baş icraçı direktoru Stefano Domenikalini, Formula 1-in məsləhətçisi Flavio Briatoreni və britaniyalı supermodel Naomi Kempbelli qəbul etmişdir. Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul etmişdir.
2024, 14 sentyabr	Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağında və ətraf ərazilərdə aparılmış abadlıq-yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.
2024, 10 sentyabr	Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olmuşdur.
2024, 4-6 sentyabr	**İtaliya Respublikasında işgüzar səfərdə olmuşdur.** ***4 Sentyabr 2024***

	İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfərə gəlmişdir. ***5 sentyabr 2024*** İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharında iştirak etmişdir. Romada İtaliya Respublikasının Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşmüş və Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir. Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşmüşdür. Milan şəhərinə gəlmişdir. ***6 sentyabr 2024*** Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış etmişdir. Çernobbio şəhərində İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri ilə görüşmüşdür. Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşmüşdür. İtaliya Respublikasına işgüzar səfəri başa çatmışdır.
2024, 2 sentyabr	Kəlbəcər rayonuna səfər etmişdir. Tərtər çayı üzərində yerləşən "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir. Xudavəng monastır kompleksində olmuşdur. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış olmuşdur. Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoymuşdur. Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılması planlaşdırılan modul tipli məktəbin layihəsi ilə tanış olmuşdur. Kəlbəcər şəhərində inzibati binanın təməlini qoymuşdur. Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanış olmuşdur.

	"İstisu" mineral su zavodunun açılışında iştirak etmişdir. "AzərEnerji" ASC-nin 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyasının (KSES-in) açılışında iştirak etmişdir. İstisu qəsəbəsində "Azərişıq" ASC-nin 110/35/10 kV-luq "İstisu" yarımstansiyasının açılışında iştirak etmişdir. "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur. İstisu qəsəbəsinin təməlini qoymuşdur.
2024, 1 sentyabr	Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar keçirilən seçkilərində 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs vermişdir.
2024, 28 avqust	Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində yaradılan "LANDAU School" Təhsil Kompleksinin məktəbinin və "The Grand" apart hotelinin açılışında iştirak etmişdir.
2024, 22-24 avqust	**Özbəkistan Respublikasında dövlət səfərində olmuşdur.** ***22 avqust 2024*** **Daşkənd** Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoymuş, Müstəqillik abidəsini ziyarət etmişdir. ***23 avqust 2024*** Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə məhdud tərkibdə görüşmüşdür. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclasında iştirak etmişdir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə birgə hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüş keçirmişdir. ***24 avqust 2024*** Özbəkistan Respublikasında dövlət səfəri başa çatmışdır.
2024, 19 avqust	Ölkəmizdə dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə məhdud tərkibdə görüşü olmuşdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə "Bakı Ağ Şəhər"də olmuşdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü olmuşdur.

	Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə Bakıda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında olmuşdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə dövlət ziyafəti vermişdir.
2024, 18 avqust	Ölkəmizdə dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə şam etmişdir.
2024, 14 avqust	Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul etmişdir.
2024, 8-9 avqust	**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün Qazaxıstana səfər etmişdir.** ***8 avqust 2024*** **Astana** “Вечер дружбы” adlı qala konsertdə iştirak etmişdir. Dövlət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak etmişdir. ***9 avqust 2024*** Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə "Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı"nın təntənəli təqdim edilməsi mərasimində iştirak etmişdir. Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə çıxış etmişdir. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından dövlət başçılarının şərəfinə verilən rəsmi qəbulda iştirak etmişdir.
2024, 6 avqust	Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul etmişdir.
2024, 5 avqust	“Cavanşir” körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında iştirak etmişdir. Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mayls Robert Armiteycin etimadnaməsini qəbul etmişdir. Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddinin etimadnaməsini qəbul etmişdir.
2024, 30 iyul	Bakıda “Gənclik” metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olmuşdur.
2024, 24 iyul	Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olmuşdur.

2024, 21 iyul	Şuşaya səfər etmişdir. “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak etmişdir.
2024, 18 iyul	**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərədə işgüzar səfərdə olmuşdur.** **Oksford** Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden ilə görüşü olmuşdur. İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd ilə söhbət etmişdir. Macarıstanın Baş naziri Viktor Orban ilə söhbət etmişdir. “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının açılış plenar sessiyasında iştirak etmişdir. 4-cü Zirvə toplantısı çərçivəsində “Enerji və bağlantı” mövzusunda dəyirmi masada çıxış etmişdir. Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olmuşdur. Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşü olmuşdur. Çex Respublikasının Baş naziri Petr Fiala ilə görüşü olmuşdur. “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının bağlanış plenar sessiyasında iştirak etmişdir. “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir. Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşü olmuşdur.
2024, 15 iyul	Bakının Nərimanov rayonunda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak etmişdir.
2024, 13 iyul	ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidi qəbul etmişdir.
2024, 11-12 iyul	**Pakistan İslam Respublikasında dövlət səfərində olmuşdur.** ***11 iyul 2024*** İslamabadda milli abidəni ziyarət etmişdir. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə məhdud tərkibdə görüşü olmuşdur.

	Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü olmuşdur. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin adından şərəfinə verilən rəsmi naharda iştirak etmişdir. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. ***12 iyul 2024*** Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü olmuşdur. İslam Respublikasının Prezidenti Asif Əli Zərdarinin adından şərəfinə verilən dövlət ziyafətində iştirak etmişdir. Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda hərbi sərgi ilə tanış olmuşdur.
2024, 5-6 iyul	Xankəndi və Şuşada səfərdə olmuşdur. ***5 iyul 2024*** **Xankəndi** Qarabağ Universitetində görülən işlərlə tanış olmuşdur. "Qarabağ" hotelinin açılışında iştirak etmişdir. Xankəndi Konqres Mərkəzinin təməlini qoymuşdur. Əsaslı təmir və bərpadan sonra "Palace" hotelinin açılışında iştirak etmişdir. **Şuşa** "İsa bulağı" istirahət kompleksinin açılışında iştirak etmişdir. Şuşa sutəmizləyici qurğular kompleksinin açılışında iştirak etmişdir. Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışında iştirak etmişdir. Dövlət Xidmətləri Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak etmişdir. Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir. Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul etmişdir. Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul etmişdir. Ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə 23 binadan ibarət birinci yaşayış kompleksində və Aşağı Gövhər Ağa məscidində olmuş və şəhəri gəzmişdir.

	Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə qeyri-rəsmi naharı olmuşdur. ***6 iyul 2024*** Türk Dövlətləri Təşkilatı dövlət və hökumət başçıları ilə birgə "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsini imzalamışdır. Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış etmişdir. Türk Dövlətləri Təşkilatı dövlət və hökumət başçılarının şərəfinə nahar vermişdir.
2024, 3-5 iyul	**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Astanaya səfər etmişdir.** ***3 iyul 2024*** **Astana** Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olmuşdur. Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə üçtərəfli görüşü olmuşdur. Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edən nümayəndə heyətlərinin başçılarının şərəfinə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından verilən qeyri-rəsmi şam yeməyində iştirak etmişdir. ***4 iyul 2024*** ŞƏT-in Zirvə toplantısının iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir. "ŞƏT plyus" formatında görüşdə çıxış etmişdir.
2024, 2 iyul	Bakı gəmiqayırma zavodunda inşa olunan "Zəngilan" tankerinin istismara verilməsi mərasimində iştirak etmişdir.
2024, 1 iyul	Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yuri Qusevin etimadnaməsini qəbul etmişdir. İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luka Di Canfrançeskonun etimadnaməsini qəbul etmişdir. Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanovun etimadnaməsini qəbul etmişdir.

	Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul etmişdir. Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Henri Jr. Bensurtonun etimadnaməsini qəbul etmişdir.
2024, 28 iyun	Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul etmişdir.
2024, 27 iyun	Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakavanı qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersonu qəbul etmişdir.
2024, 26 iyun	İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan hərbi nəqliyyat təyyarəsinin təqdimat mərasimində iştirak etmişdir. İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2024, 22 iyun	"Euronews" televiziyasına müsahibə vermişdir.
2024, 21 iyun	Bakıda Botanika İnstitutunun yeni inşa olunmuş binasının açılışında iştirak etmiş və Nəbatat Bağında görülən işlərlə tanış olmuşdur.
2024, 13 iyun	Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak etmişdir.
2024, 10 iyun	**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfər etmişdir.** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə nahar etmişdir.
2024, 7-8 iyun	**Misir Ərəb Respublikasına rəsmi səfər etmişdir.** ***8 iyun 2024*** **Qahirə** Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə təkbətək görüşü olmuşdur. Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə geniş tərkibdə görüşü olmuşdur. Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.

	Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü olmuşdur.
2024, 6 iyun	Qırğız Respublikasının Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi qəbul etmişdir. Ümumdünya Ticarət Təşkilatının baş direktoru Nqozi Okonyo-İvealanı qəbul etmişdir. TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matraini qəbul etmişdir.
2024, 4 iyun	Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul etmişdir. Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabiri qəbul etmişdir. Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində çıxış etmişdir.
2024, 3 iyun	Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul etmişdir.
2024, 29 may	"CVC Capital Partners" şirkətinin həmtəsisçisi və sədri Rolli Van Rappardı qəbul etmişdir.
2024, 28 may	Ağdam rayonuna və Xocalı şəhərinə səfər etmişdir. **Ağdam** Tağıbəyli kəndinin təməlini qoymuşdur. Güllücə kəndinin təməlini qoymuşdur. Nəmirli kəndinin təməlini qoymuşdur. Şotlanlı kəndinin təməlini qoymuşdur. **Xocalı** Əliyeva Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur. Xocalı şəhərinə köçən sakinlərlə görüşmüşdür.
2024, 27 may	Bakıda "Crescent Bay" layihəsinin təqdimatı və "Crescent Mall" ticarət mərkəzinin açılışında iştirak etmişdir.

2024, 23 may	"Euronews" televiziyasına müsahibə vermişdir. Ölkəmizdə dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olmuşdur. Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü olmuşdur. Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2024, 21 may	Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul etmişdir. İranın ölkəmizdəki səfirliyində olmuş, İran Prezidentinin və digər şəxslərin helikopter qəzasında həlak olmaları ilə əlaqədar başsağlığı vermişdir.
2024, 20 may	Latviya Seyminin sədri Dayqa Mierinanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2024, 18-19 may	Cəbrayıl və Zəngilan rayonunlarına səfər etmişdir. ***18 may 2024*** **Cəbrayıl** Böyük Mərcanlı kəndinin təməlini qoymuşdur. Karxulu kəndinin təməli qoymuşdur. Sarıcallı kəndinin təməlini qoymuşdur. Maşanlı kəndinin təməlini qoymuşdur. **Zəngilan** "Ağalı" hotelinin açılışında iştirak etmişdir. Mincivan qəsəbəsinin təməlini qoymuşdur. ***19 may 2024*** **Cəbrayıl** İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə İran İslam Respublikasının dövlət sərhədində nümayəndə heyətlərinin iştirakı ilə görüşü olmuşdur. İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə birgə "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimində iştirak etmişdir.
2024, 17 may	Ölkəmizdə dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə birgə Füzuli rayonuna və Şuşa şəhərinə səfər etmişdir.

	Füzuli Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə birgə Füzuli şəhərinin dağıdılmış yerlərinə baxmış və şəhərin Baş planı ilə tanış olmuşdur. **Şuşa** Birinci yaşayış kompleksində olmuşdur. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxmışdır. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən gülləbaran edilmiş heykəllərinə baxmışdır. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxmışdır. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Bülbülün ev-muzeyində olmuşdur. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Cıdır düzündə olmuşdur.
2024, 16 may	Ölkəmizə dövlət səfərinə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olmuşdur. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşü olmuşdur. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri ilə tanış olmuşdur. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə dövlət ziyafəti vermişdir.
2024, 14 may	ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

2024, 13 may	Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendi qəbul etmişdir. Tuvalunun general-qubernatoru Falani Tofinqanı, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolaunu və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul etmişdir.
2024, 10-11 may	Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət etmişdir. Fizuli, Laçın rayonlarına və Şuşa şəhərinə səfər etmişdir. ***10 may 2024*** **Fizuli** Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak etmişdir. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda görülən işlərlə tanış olmuş, birinci tunelin açılışında iştirak etmişdir. **Şuşa** Şuşada üçüncü yaşayış kompleksinin təməlini qoymuşdur. Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanış olmuşdur. Üzeyir Hacıbəylinin ev-muzeyində aparılan bərpa işləri ilə tanış olmuşdur. “Şirin su” hamamının bərpadan sonra açılışında iştirak etmişdir. Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olmuşdur. Mamayı məscidinin bərpadan sonra açılışında iştirak etmişdir. Xankəndi-Şuşa-Laçın avtomobil yolunda görülən işlərlə tanış olmuşdur. Turşsu qəsəbəsinin təməlini qoymuşdur. Birinci yaşayış kompleksinin açılışında iştirak etmiş və şəhərə köçmüş ilk sakinlərlə görüşü olmuşdur. **Laçın** Sus kəndində görülmüş işlərlə tanış olmuş, kəndə köçmüş sakinlərlə görüşmüşdür. “AzərEnerji” ASC-nin “Zabux” və “Qarıqışlaq” Kiçik Su Elektrik stansiyalarının (KSES) açılışlarında iştirak etmişdir. ***11 may 2024*** Şuşada ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul etmişdir.

2024, 9 may	Faşizm üzərində Qələbə uğrunda həlak olan Azərbaycan övladlarının xatirəsini ehtiramla anmışdır.
2024, 8 may	Ölkəmizə rəsmi səfər edən Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olmuşdur. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və birinci xanım Desislava Radevanın şərəfinə rəsmi nahar vermişdir. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü olmuşdur. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2024, 7 may	Ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olmuşdur. Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə geniş tərkibdə görüşü olmuşdur. Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun şərəfinə rəsmi nahar vermişdir.
2024, 6 may	Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul etmişdir.
2024, 3 may	Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səudu qəbul etmişdir.
2024, 2 may	BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul etmişdir. Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini Konstantin Kosaçovu və Dövlət Dumasının MDB işləri, Avrasiya iqtisadiyyatı və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikovu qəbul etmişdir.
2024, 1 may	Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin müsəlman dini rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir. Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin başçılıq etdiyi Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyətini qəbul etmişdir. Rusiyanın Baş ravvini Berl Lazarı qəbul etmişdir.

	Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi Zuhair Əlhartini qəbul etmişdir. Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində iştirak etmişdir. İraq Respublikası Parlamentinin sədri Möhsin Əli Əkbər Əl-Mandalavini qəbul etmişdir. BMT Baş katibinin Sülhməramlı Əməliyyatlar Departamentində qanunun aliliyi və təhlükəsizlik təsisatları üzrə köməkçisi Aleksandr Zuyevi qəbul etmişdir.
2024, 30 aprel	Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əlini qəbul etmişdir. Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednarı, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "Yetmiş Həvari Kvorumu"nun üzvü Cek Gerardı, Stirlinq Fondunun prezidenti Mayls Hanseni və Stirlinq Fondunun baş icraçı direktoru Edvard Rounu qəbul etmişdir.
2024, 29 aprel	Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul etmişdir. Malayziyanın Parlament Senatının prezidenti Datuk Mutanq Taqalı qəbul etmişdir.
2024, 25-26 aprel	**Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün Füzuli şəhərindən Almaniyaya işgüzar səfər etmişdir.** ***26 aprel 2024*** **Berlin** Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olmuşdur. Almaniya Federativ Respublikasının Kansler Olaf Şolts ilə geniş tərkibdə görüşü olmuşdur. "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış etmişdir. Almaniyanın xarici işlər naziri ilə görüşü olmuşdur. Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olmuşdur. Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri ilə görüşü olmuşdur. Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olmuşdur. Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

2024, 24-25 aprel	***24 aprel 2024*** Ölkəmizə dövlət səfəri edən Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə məhdud tərkibdə görüşü olmuşdur. Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclasında iştirak etmişdir. Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Prezident Sadır Japarov ilə birgə Bakıda Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak etmişdir. Qırğız Respublikasının Prezidenti Sadır Japarovun şərəfinə "Gülüstan" sarayında dövlət ziyafəti vermişdir. ***25 aprel 2024*** Fizuli və Ağdam rayonlarına səfər etmişdir. Fizuli Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Füzuli şəhərinin dağıdılmış yerlərinə baxmış, şəhərin Baş planı ilə tanış olmuşdur. Ağdam Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Ağdam şəhərinin Baş planı ilə tanış olmuşdur. Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olmuşdur. Qırğız Respublikasının Prezident Sadır Japarov ilə birgə Cümə məscidinin bərpadan sonra açılışında iştirak etmişdir. Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə Ağdam Konfrans Mərkəzi ilə tanış olmuşdur. Qırğız Respublikasının Prezident Sadır Japarov ilə birgə Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində iştirak etmişdir. Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə Ağdamda Şahbulaq qalasında olmuşdur.
2024, 23 aprel	ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda forumda iştirak etmiş və tədbir iştirakçılarının suallarına cavab vermişdir.
2024, 22 aprel	**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti Moskvada işgüzar səfərdə olmuşdur.**

	Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə nahar etmişdir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşdə çıxış etmişdir.
2024, 17 aprel	Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul etmişdir.
2024, 16 aprel	Hacıqabul rayonunda Şirvan suvarma kanalının təməlini qoymuş və çıxış etmişdir.
2024, 9 aprel	Hacıqabul, Qəbələ rayonlarına və Gəncə şəhərinə səfər etmişdir. **Hacıqabul** “Agro Dairy” MMC-yə məxsus 4200 hektar torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış olmuşdur. **Gəncə** Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir. Ekoloji Park Kompleksinin tikintisi ilə tanış olmuşdur. Gəncə İdman Sarayının açılışında iştirak etmişdir. Şəhər stadionunun təməlini qoymuşdur. **Qəbələ** Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir. “Azərişıq” ASC-nin 110/35/10 kV-luq “Hacıalılı” elektrik yarımstansiyasının və Regional Təlim Mərkəzinin açılışında iştirak etmişdir. 160 çarpayılıq Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir. Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun açılışında iştirak etmişdir. 624 şagird yerlik Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak etmişdir.
2024, 5 aprel	Türkiyə Böyük Millət Məclisinin millət vəkili Mövlud Çavuşoğlunu qəbul etmişdir.
2024, 4 aprel	Ölkəmizə rəsmi səfər edən Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə təkbətək görüşü olmuşdur.

	Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə geniş tərkibdə görüşü olmuşdur. Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun şərəfinə rəsmi nahar vermişdir. Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2024, 3 aprel	Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovu qəbul etmişdir.
2024, 2 aprel	Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamı qəbul etmişdir. Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2024, 1 aprel	Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul etmişdir.
2024, 18 mart	Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb və Azərbaycan xalqını bayram münasibətilə təbrik etmişdir.
2024, 17 mart	NATO-nun Baş katibi Yens Stoltenberq ilə təkbətək görüşü olmuşdur. NATO-nun Baş katibi Yens Stoltenberq ilə birgə mətbuata bəyanatla çıxış etmişdir. NATO-nun Baş katibi Yens Stoltenberq ilə şam yeməyi əsnasında geniş tərkibdə görüşü olmuşdur.
2024, 16 mart	İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olmuşdur. Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olmuşdur. Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə nahar əsnasında geniş tərkibdə görüşü olmuşdur.
2024, 15 mart	İsrailin sabiq xarici işlər naziri Tzipi Livnini qəbul etmişdir. Münxen Təhlükəsizlik Konfransı Fondunun prezidenti Volfqanq İşingeri qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 78-ci sessiyasının prezidenti Dennis Fransisi qəbul etmişdir. BMT-nin İnkişaf Proqramının (UNDP) administratoru AximŞtayneri qəbul etmişdir.

2024, 14 mart	Bakıda "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunda iştirak etmişdir. BMT Baş katibinin siyasət üzrə müavini Qay Rayderi qəbul etmişdir. Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşü olmuşdur. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviçi qəbul etmişdir.
2024, 13 mart	BP şirkətinin yeni baş icraçı direktoru Mürrey Aukinklosu qəbul etmişdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul etmişdir. Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul etmişdir. BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul etmişdir. Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul etmişdir.
2024, 12 mart	Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə Füzuli və Şuşa rayonlarına səfər etmişdir. **Füzuli** Füzuli şəhərinin Baş planı ilə tanış olmuşdur. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə birgə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak etmişdir. Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanış olmuşdur. **Şuşa** Şuşada ermənilər tərəfindən gülləbaran edilmiş heykəllərinə baxmışdır.
2024, 11 mart	Ölkəmizə səfər edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olmuşdur. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birgə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurasının birinci iclasında iştirak etmişdir.

	Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birgə Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləmişdir. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə dövlət ziyafəti vermişdir.
2024, 6 mart	Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə görüşü olmuşdur.
2024, 4 mart	Bolqarıstan Respublikası Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkovu qəbul etmişdir.
2024, 2 mart	"Euronews" televiziyasına müsahibə vermişdir.
2024, 1 mart	Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonu qəbul etmişdir. İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto-Fratini qəbul etmişdir. "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları tədbirində çıxış etmişdir. Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur. Albaniya Respublikasının Baş naziri Edi Rama ilə nahar əsnasında geniş tərkibdə görüşü olmuşdur.
2024, 28 fevral	Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2024, 27 fevral	Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiəni qəbul etmişdir.
2024, 26 fevral	Xocalı rayonuna səfər etmişdir. Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdur. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü olmuşdur. Saat 17.00-da Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.
2024, 18-19 fevral	**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyədə rəsmi səfərdə olmuşdur.**

	19 fevral 2024 Ankarada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət etmişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü olmuşdur. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.
2024, 16-18 fevral	**Almaniyanın Münxen şəhərində səfərdə olmuşdur.** ***16 fevral 2024*** İtaliyanın "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Mariani ilə görüşü olmuşdur. ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borq ilə görüşü olmuşdur. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Basson ilə görüşü olmuşdur. ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn ilə görüşü olmuşdur. Almaniya Bundestaqının Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadeful ilə görüşü olmuşdur. İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşü olmuşdur. Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harms ilə görüşü olmuşdur. Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan ilə görüşü olmuşdur. ***17 fevral 2024*** ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüşü olmuşdur. İraq Kürdüstan Regionunun Başçısı Neçirvan Bərzani ilə görüşü olmuşdur. "Indra" şirkətinin prezidenti, idarə heyətinin sədri Mark Tomas Murtra ilə görüşü olmuşdur. Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşü olmuşdur. Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə ikitərəfli görüşü olmuşdur.

	Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olmuşdur. Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Antoni Blinken ilə görüşü olmuşdur. Avropa Komissiyasının Avropa Yaşıl Saziş Təşəbbüsü, təsisatlararası əlaqələr və planlaşdırma üzrə İcraçı vitse-prezidenti Maroş Şevçoviç ilə görüşü olmuşdur. Banqladeş Xalq Respublikasının Baş naziri xanım Şeyx Hasina ilə görüşü olmuşdur. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşü olmuşdur. "The Rockefeller Foundation"ın strateji kommunikasiyalar, siyasət və təbliğat üzrə baş vitse-prezidenti xanım Eylin Okonnor ilə görüşü olmuşdur. ***18 fevral 2024*** Bundestaqın Xristian-Demokrat / Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının üzvü Armin Laşet ilə görüşü olmuşdur. Münxen Təhlükəsizlik Konfransının sədri Kriştof Xoysqen ilə görüşü olmuşdur. Dünya Bankının baş idarəedici direktoru Aksel Trotsenburq ilə görüşü olmuşdur. ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmid ilə görüşü olmuşdur.
2024, 14 fevral	Milli Məclisdə Azərbaycan Respublikasının Prezidenti seçilməyi münasibətilə andiçmə mərasimində nitq söyləmişdir. Xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmişdir. Fəxri xiyabana gələrək Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmişdir.
2024, 9 fevral	Salyan rayonuna səfər etmişdir. Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləmişdir.
2024, 8 fevral	Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedevi qəbul etmişdir. Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir. Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mini qəbul etmişdir. Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Eri və TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesteni qəbul etmişdir.

	Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.
2024, 7 fevral	Azərbaycan Respublikasında keçirilən növbədənkənar prezident seçkiləri ilə əlaqədar Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs vermişdir.
2024, 2 fevral	BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul etmişdir.
2024, 1 fevral	Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul etmişdir.
2024, 29 yanvar	Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
2024, 23 yanvar	Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul etmişdir.
2024, 22 yanvar	Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında tikinti, abadlıq işləri və Ofis binasında yaradılan şərait ilə tanış olmuşdur.
2024, 20 yanvar	20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət etmişdir.
2024, 18 yanvar	Syerra-Leone Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alie Badara Kamaranın etimadnaməsini qəbul etmişdir. Seneqal Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şeyx Qeyenin etimadnaməsini qəbul etmişdir. Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsini qəbul etmişdir.
2024, 16 yanvar	Lənkəran və Neftçala rayonlarına səfər etmişdir. **Lənkəran** “Lenk Fruit” MMC-nin sitrus bağında yaradılan şəraitlə tanış olmuşdur. Regional “ASAN xidmət” mərkəzinin açılışında iştirak etmişdir. Yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılan şəraitlə tanış olmuşdur. “Laran” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olmuşdur. Lənkəran şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir. **Neftçala** Neftçala şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.

	Şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak etmişdir.
2024, 15 yanvar	Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak etmişdir.
2024, 10 yanvar	Yerli televiziya kanallarına müsahibə vermişdir.
2024, 8-9 yanvar	***8 yanvar 2024*** Ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın şərəfinə rəsmi ziyafət vermişdir. ***9 yanvar 2024*** Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olmuşdur
2024, 7 yanvar	Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabenin etimadnaməsini qəbul etmişdir. Lüksemburq Böyük Hersoqluğunun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alain de Muyserin etimadnaməsini qəbul etmişdir. Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sezar Auqusto de las Kasas Diasın etimadnaməsini qəbul etmişdir.
2024, 1 yanvar	Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciət etmişdir.